| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **Qanunlar** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **08.12.1999** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **773-IQ** |
| **ADI** | **“Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2000, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 14)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **370.000.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **01.07.2011** |

**“Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır**:

1. “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə **təsdiq edilsin.**

2. Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 8 dekabr 1999-cu il
773-IQ

Azərbaycan Respublikasının
1999-cu il 8 dekabr tarixli, 773-IQ saylı Qanunu ilə
TƏSDİQ EDİLMİŞDİR

**“Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında**

# ƏSASNAMƏ

1. Azərbaycan Respublikası vətəndaşları (bundan sonra — vətəndaşlar), əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmağa borcludurlar.

Yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınma (çıxarılma) “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə həyata keçirilir.[1]

Müvafiq icra hakimiyyəti orqanı öz səlahiyyətləri daxilində həyata keçirdiyi yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınma haqqında məlumatları “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə ötürür.[2]

2. *Yaşayış yeri üzrə qeydiyyatda olmayan vətəndaşlara* və 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış vətəndaşlığı olmayan şəxslərə və onların “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək doğulmuş uşaqlarına (bundan sonra - “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs”) ilk dəfə müvafiq şəxsiyyət vəsiqəsi verilərkən onlar yaşayış yeri üzrə qeydiyyata alınırlar. Bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı vətəndaşdan və vətəndaşlığı olmayan şəxsdən “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında *Əsasnamədə* və “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin~~və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin~~ xüsusi sənədləri haqqında” Əsasnamənin 10-cu bəndində göstərilən sənədlərdən əlavə, yaşayış sahəsinə köçmək üçün əsas verən aşağıdakı sənədlərdən birini tələb etməlidir:[3]

a) mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış;[4]

b) icarəyə verənin və ya kirayəyə verənin müvafiq olaraq icarəçi və ya kirayəçi ilə bağladığı icarə və ya kirayə müqaviləsi;

v) yaşayış sahəsinə köçmək üçün əsas verən order və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd;

q) vətəndaşa yaşayış sahəsi verən şəxsin ərizəsi.

*2-1. Bu Əsasnamənin 2-ci maddəsində göstərilən halda vətəndaş yalnız “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə”də nəzərdə tutulmuş şəxsiyyət vəsiqəsinin verilməsi haqqında ərizə-anketi doldurmalı və vəsiqənin verilməsi üçün tələb olunan sənədlərdən əlavə həmin maddədə göstərilən, yaşayış sahəsinə köçmək üçün əsas verən sənədlərdən birini təqdim etməlidir.*[5]

3. Yaşayış yerini dəyişdirmiş vətəndaş və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs yeni yaşayış yerinə gəldikdən sonra 10 gündən gec olmayaraq qeydiyyata alınması üçün həmin yerin müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir. Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı vətəndaşı və vətəndaşlığı olmayan şəxsi yaşayış yeri üzrə qeydiyyata almaq üçün onlardan bu Əsasnamənin *2-ci maddəsinin “a” - “q” bəndlərində*göstərilənlərdən əlavə aşağıdakı sənədləri tələb etməlidir:[6]

*vətəndaşın yaşayış yeri üzrə qeydiyyata alınması haqqında ərizə-anket (forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir);*[7]

*vətəndaşlığı olmayan şəxslər üçün ərizə-anket (3 və 4 saylı Əlavə);*[8]

şəxsiyyət vəsiqəsi ~~və ya doğum haqqında şəhadətnamə~~, hərbi bilet və ya təhkim şəhadətnaməsi.[9]

4. Vətəndaş yeni yaşayış yeri üzrə qeydiyyata alınarkən hərbi biletini və ya təhkim şəhadətnaməsini təqdim etmək imkanı olmadıqda o, əvvəllər yaşadığı yerin hərbi komissarlığı tərəfindən onun hərbi uçotda dayanıb-dayanmaması faktını təsdiq edən sənədi müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidir.

*4-1. 15 yaşı tamam olmamış vətəndaşın yaşayış yeri üzrə qeydiyyata alınması onun qanuni nümayəndəsinin bu barədə müraciəti olduqda həyata keçirilir. Bu halda vətəndaşın qanuni nümayəndəsi tərəfindən aşağıdakı sənədlər təqdim olunur:*[10]

*1) 15 yaşı tamam olmamış vətəndaşın yaşayış yeri üzrə qeydiyyata alınması haqqında ərizə-anket (forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir);*

*2) doğum haqqında şəhadətnamə;*

*3) bu Əsasnamənin 2-ci maddəsində göstərilən, yaşayış sahəsinə köçmək üçün əsas verən sənəd.*

5. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı bu Əsasnamənin*2-ci – 4-1-ci maddələrində* göstərilən sənədləri nəzərdən keçirir və ~~"Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin və "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında" Əsasnamənin tələblərinə müvafiq surətdə~~ qeydiyyata alınma barədə ərizə-anketin düzgün doldurulmasını yoxlayır və onu təsdiq edir.[11]

6. Yaşayış yeri üzrə qeydiyyata alınma barədə müraciət etmiş vətəndaş və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərhal qeydiyyata alınır. Həmin orqan *vətəndaşın şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısında yaşayış yeri üzrə məlumatı dəyişdirir, vətəndaşlığı olmayan şəxsə isə şəxsiyyət vəsiqəsi verilənə qədər ona* Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən müvəqqəti sənəd verir. *Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı* olmayan şəxsə Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra verilən şəxsiyyət vəsiqəsi verilərkən müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı tərəfindən həmin sənəd geri alınır.[12]

~~7. Vətəndaşın 25, 35, 50 yaşına çatması, həmçinin onun soyadının, adının, atasının adının, ailə vəziyyətinin dəyişməsi, şəxsiyyət vəsiqəsinin itirilməsi, yararsız hala düşməsi ilə bağlı şəxsiyyət vəsiqəsi dəyişdirilərkən heç bir əlavə sənəd tələb edilmədən, o, yaşayış yeri üzrə qeydiyyata alınmalıdır.~~[13]

8. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin 20 yaşına çatması, sonradan isə hər 5 ildən bir və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin soyadının, adının, atasının adının, ailə vəziyyətinin dəyişməsi, şəxsiyyət vəsiqəsinin itirilməsi, yararsız hala düşməsi ilə bağlı şəxsiyyət vəsiqəsi dəyişdirilərkən heç bir əlavə sənəd tələb edilmədən, o, yaşayış yeri üzrə qeydiyyata alınmalıdır.

9. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yalnız aşağıdakı hallarda:

a) "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununda göstərilən müvafiq sənədlər təqdim edilmədikdə *(bu Əsasnamənin 23-3-cü maddəsinin tələbləri nəzərə alınmaqla);*[14]

b) sərhəd zonalarında, qapalı hərbi şəhərciklərin ərazilərində qapalı ərazilərdə (qanunvericiliklə müəyyən edilmiş şəxslər istisna olmaqla) ekoloji fəlakət zonalarında, infeksiya və zəhərlənmə ilə bağlı xüsusi şərtlər və rejimlər qoyulmuş, fövqəladə və ya hərbi vəziyyət elan olunmuş yerlərdə, müharibə, səfərbərlik elan olunduqda;[15]

v) şəxsin qeydiyyata alınacağı halda (Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə əsasən ailə üzvü kimi yaşayış sahəsinə köçürüldüyü hallar istisna olmaqla), həmin yaşayış sahəsində yaşayan şəxslərin hər birinə Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 40-cı maddəsində müəyyən edilmiş mənzil normasından az yaşayış sahəsi düşdükdə;

q) şəxsin qeydiyyata alınmaq istədiyi ev (yaşayış sahəsi) uçmaq qorxusu altında olduqda şəxsi yaşayış yeri üzrə qeydiyyata almaqdan imtina edir.

10. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yalnız aşağıdakı hallarda şəxsi yaşayış yeri üzrə qeydiyyatdan çıxarır:

a) yaşayış yerini dəyişdikdə — yeni yaşayış yeri üzrə qeydiyyata alınması barədə müvafiq icra hakimiyyəti orqanının məlumatına əsasən;

b) başqa ölkədə yaşayış yeri seçdikdə — müvafiq icra hakimiyyəti orqanının məlumatına əsasən;

v) *ömürlük* azadlıqdan məhrum edildikdə — məhkəmənin qanuni qüvvəyə minmiş hökmü əsasında;[16]

q) öldükdə və ya məhkəmə qətnaməsi ilə ölmüş elan edildikdə — ölüm aktının qeydə alınması haqqında müvafiq icra hakimiyyəti orqanının məlumatı əsasında;

ğ) yaşayış sahəsindən çıxarıldıqda və ya yaşayış sahəsindən istifadə hüququna xitam verildikdə — məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi əsasında;

d) qeydiyyata alınma üçün əsas olmuş sənədlərin və ya məlumatların həqiqətə uyğun olmadığı və ya qeydiyyat məsələsi həll edilərkən, vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətə yol verildiyi aşkar edildikdə — məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında;

~~e) əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənar edildikdə — müvafiq icra hakimiyyəti orqanının məlumatı əsasında.~~[17]

11. Mehmanxanaya, sanatoriyaya, istirahət evinə, pansionata, kempinqə, turist bazasına, yataqxanaya, xəstəxanaya və ya digər belə ictimai yerlərə gələn vətəndaş *olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anket (forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir)* dolduraraq həmin yerin müdiriyyətinə verir. Müdiriyyət isə öz növbəsində həmin ərizə-anketi 24 saat ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Müvafiq icra hakimiyyəti orqanı əlavə heç bir sənəd tələb etmədən həmin vətəndaşın qeydiyyatını aparır.[18]

12. Yaşayış yerindən kənarda 60 gündən artıq müvəqqəti yaşamaq istəyən vətəndaş həmin yerə gəldikdən sonra 7 gün ərzində (istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günüistisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşına aşağıdakı sənədləri təqdim etməlidir:[19]

şəxsiyyət vəsiqəsi;

*vətəndaşın olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anket (forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir).*[20]

13. Müvafiq icra hakimiyyəti orqanı həmin vətəndaşı dərhal*olduğu yer üzrə qeydiyyata almalıdır.*[21]

14. Vətəndaş olduğu yerdən getdikdə müvafiq icra hakimiyyəti orqanı onu olduğu yer üzrə qeydiyyatdan çıxarır.

15. Hərbi qulluqçular (müddətli xidmət hərbi qulluqçularından başqa) yaşayış yeri üzrə ümumi qaydada qeydiyyata alınırlar.

16. Mənzillə təmin olunmayan hərbi xidmətdə olan hərbi qulluqçular və onların ailə üzvləri mənzillə təmin olunana kimi müvafiq icra hakimiyyəti orqanı tərəfindən hərbi hissənin yerləşdiyi yer üzrə qeydiyyata alınırlar.

Vətəndaşlar müddətli həqiqi hərbi xidmətə çağırıldıqda və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə daxil olduqda yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmırlar. Vətəndaş müddətli həqiqi hərbi xidmətə çağırıldıqda müvafiq icra hakimiyyəti orqanı, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə daxil olduqda isə həmin müəssisənin müdiriyyəti çağırışçının (kursantın) şəxsiyyət vəsiqəsini müvəqqəti alaraq, hərbi xidmət başa çatanadək saxlamaq və sonra

sahibinə qaytarmaq üçün müvafiq icra hakimiyyəti orqanına göndərir.[22]

17. Əcnəbilərin Azərbaycan Respublikasına gəlmələri Azərbaycan Respublikasının sərhəd məntəqəsində pasport və giriş icazəsi (vizası) əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydə alınır və onlara gəlmə müddətindən asılı olmayaraq qeyd vərəqəsi (5 saylı Əlavə) verilir. Üç hissədən ibarət olan həmin vərəqədəki bəndlər əcnəbi tərəfindən doldurulur. Müvafiq icra hakimiyyəti orqanı vərəqənin düzgün doldurulmasını yoxlayaraq onu təsdiqləyir. Qeyd vərəqəsinin ikinci və üçüncü hissəsi əcnəbiyə verilərək, yaşayış yeri və olduğu yer üzrə qeydiyyatı ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinin tələbləri ona şifahi izah edilir.[23]

18. *Azərbaycan Respublikasında 15 gündən artıq müvəqqəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 21-ci maddəsi ilə müəyyən edilmiş müddətdə və qaydada olduğu yer üzrə qeydiyyata alınmalıdırlar.*[24]

*Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketin (6 saylı Əlavə) blankları müvafiq icra hakimiyyəti orqanından əldə edilir.* Ərizə-anketin elektron forması müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatında yerləşdirilir. [25]

Ərizə daxil olduqdan sonra müvafiq icra hakimiyyəti orqanı dərhal *əcnəbi barədə məlumatları Vahid Miqrasiya Məlumat Sisteminə daxil etməklə, onu* olduğu yer üzrə qeydiyyata alır və bu barədə 1 iş günü ərzində *müraciət edən şəxsə* yazılı məlumat verir.[26]

Əcnəbilər aşağıdakı müddətlərə qeydiyyata alınırlar:

- viza əsasında gələnlər - vizada göstərilən qalma müddətinə;

- viza tələb olunmayan qaydada gələnlər - 90 gün müddətinə.

Əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir.

Əcnəbilər olduğu yerdən getdikdə, qəbul edən tərəf bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir və bu məlumat əsasında onlar olduğu yer üzrə qeydiyyatdan çıxarılır. Qeydiyyat müddəti başa çatdıqda əcnəbilər qeydiyyatdan çıxarılmış hesab edilir.

Əcnəbi olduğu yeri dəyişdikdə, o, bu maddədə nəzərdə tutulmuş qaydada yeni olduğu yer üzrə qeydiyyata alınmalıdır.

*BMT-nin Qaçqınlar üzrə Ali komissarının Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilərin himayə müddətinə olduğu yer üzrə qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən Nümayəndəliyin məlumatları əsasında aparılır.*[27]

19. Əcnəbi olduğu yerdən getdikdə Azərbaycan Respublikasının sərhəd məntəqəsində qeyd vərəqəsinin üçüncü hissəsi müvafiq icra hakimiyyəti orqanına təhvil verilməlidir.[28]

20. Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbi yaşayış yeri üzrə qeydiyyata alınmaqdan ötrü yaşayış yerinə gəldiyi vaxtdan 3 gün ərzində (istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir. Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı qeyd vərəqəsinin ikinci hissəsi ilə birlikdə ondan aşağıdakı sənədləri tələb etməlidir:[29]

pasport;

giriş icazəsi (viza);

yaşayış sahəsinə köçmək üçün əsas verən order (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, icarə və ya kirayə müqaviləsi və ya Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd) və əcnəbiyə yaşayış sahəsi verən şəxsin ərizəsi.[30]

Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilməli olduğu hallarda - müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş icazə.[31]

21. Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı bu sənədləri nəzərdən keçirir və yaşayış yeri üzrə qeydiyyata alınma barədə müraciət etmiş əcnəbini qeydiyyata alır və ona qeydiyyata alınma haqqında vəsiqə verir.

22. Əcnəbi yaşayış yerindən getdikdə Azərbaycan Respublikasının sərhəd məntəqəsində qeyd vərəqəsinin üçüncü hissəsi və qeydiyyata alınma haqqında vəsiqə müvafiq icra hakimiyyəti orqanına təhvil verilməlidir.[32]

23. Azərbaycan Respublikası ərazisində 30 gündən artıq yaşamaq istəyən vətəndaşlığı olmayan şəxs olduğu yer üzrə qeydiyyata alınır. Yataqxanaya, mehmanxanaya, sanatoriyaya, istirahət evinə, pansionata, kempinqə, turist bazasına, xəstəxanaya və ya digər belə ictimai yerlərə, başqa yaşayış sahəsinə gələn vətəndaşlığı olmayan şəxs dərhal ərizə-anket (4 saylı Əlavə) dolduraraq həmin yerin müdiriyyətinə və yaxud yaşayış sahəsinin sahibinə və ya istifadəçisinə verir. Müdiriyyət və ya başqa yaşayış sahəsinin sahibi, yaxud istifadəçisi isə öz növbəsində həmin sənədləri 24 saat ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edir.

Vətəndaşlığı olmayan şəxs olduğu yerdən getdikdə müvafiq icra hakimiyyəti orqanı onu olduğu yer üzrə qeydiyyatdan çıxarır.

23-1. Əcnəbilərə *və ya vətəndaşlığı olmayan şəxslərə* Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə *və ya qaçqın statusu* verilərkən, habelə əcnəbilərin *və ya vətəndaşlığı olmayan şəxslərin* Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadılarkən onlar eyni zamanda müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaşayış yeri üzrə qeydiyyata alınırlar.[33]

Bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı əcnəbidən *və ya vətəndaşlığı olmayan şəxsdən* Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazənin *və ya qaçqın statusu* verilməsi, habelə müvəqqəti olma müddətinin uzadılması üçün qanunvericiliklə müəyyən olunmuş sənədlərdən əlavə aşağıdakıları tələb etməlidir: [34]

a) yaşayış sahəsinə köçmək üçün əsas verən sənəd (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə (kirayə) müqaviləsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər sənəd);

b) əcnəbiyə *və ya vətəndaşlığı olmayan şəxsə* yaşayış sahəsi verən şəxsin ərizəsi *(əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla);*[35]

*c) əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti (əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla).*[36]

*Yaşayış yeri olmayan qaçqın statusu almış şəxslər yaşayış yeri əldə edənədək müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərinin yerləşdiyi yer üzrə qeydiyyata alınırlar.*[37]

*İnsan alverindən zərər çəkmiş hesab edilən və ya cinayət təqibi orqanlarına yardım göstərən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyatı cinayət təqibi orqanının yerləşdiyi ünvan üzrə aparılır.*[38]

Şəxsin yaşayış yeri üzrə qeydiyyata alınması haqqında məlumat ona verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsində, *qaçqın vəsiqəsində, habelə müvəqqəti olma müddətinin uzadılması haqqında qərarda*, habelə müvəqqəti olma müddətinin uzadılması haqqında qərarda öz əksini tapır.[39]

23-2. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə *və ya qaçqın statusu* almış, habelə ölkədə müvəqqəti olma müddəti uzadılmış əcnəbi *və ya vətəndaşlığı olmayan şəxs* yaşayış yerini dəyişdikdə 10 gündən gec olmayaraq yeni yaşayış yeri üzrə qeydiyyata alınması üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir. Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı əcnəbini *və ya vətəndaşlığı olmayan şəxsi* yaşayış yeri üzrə qeydiyyata almaq üçün ondan bu Əsasnamənin *23-1-ci maddəsinin "a", "b" və "c" bəndlərində* göstərilənlərdən əlavə aşağıdakı sənədləri tələb etməlidir:[40]

- ərizə;
- şəxsiyyətini təsdiq edən sənədin surəti;
- ölkə ərazisində qanuni əsaslarla olmasını və ya yaşamasını təsdiq edən müvafiq sənədin surəti.[41]

*23-3. Yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınma üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.*[42]

24. Statistik uçotun formalarını, qeydiyyat aparan müvafiq icra hakimiyyəti orqanları ilə statistik uçot orqanları arasında sənədlərin dövriyyəsini statistika orqanları ilə razılaşdırmaqla, müvafiq icra hakimiyyəti orqanı müəyyənləşdirir.

25. Yaşayış yeri üzrə və ya olduğu yer üzrə qeydiyyat aparılmasına müvəkkil edilmiş şəxslər vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin yaşadıqları və olduqları yer üzrə qeydiyyatını bu Əsasnamənin tələblərinə uyğun aparılmasına görə məsuliyyət daşıyırlar.

26. Qanunun tələblərinə zidd olaraq qeydiyyata almaqdan şifahi və yazılı imtina edilməsindən, eləcə də vətəndaşlardan, vətəndaşlığı olmayan şəxslərdən, əcnəbilərdən Qanunda nəzərdə tutulmayan sənədlər tələb olunmasından və ya qeydiyyata alınmasında süründürməçiliyə yol verilməsindən vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, əcnəbilər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilərlər.[43]

27. Yaşayış yeri və olduğu yer üzrə qeydiyyatdan keçməmiş vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, əcnəbilər, habelə, qeydiyyata almaqdan əsassız imtina edən, qeydiyyata almaq üçün vətəndaşlardan, vətəndaşlığı olmayan şəxslərdən, əcnəbilərdən "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmayan sənədlər tələb edən, qeydiyyata almaqda süründürməçiliyə yol verən və ya digər qeydiyyata alma və qeydiyyatdan çıxarılma qaydalarına əməl etməyən təqsirli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun intizam, inzibati və ya cinayət məsuliyyəti daşıyırlar.

~~"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında"~~
~~Azərbaycan Respublikası Qanununun~~
~~tətbiqi haqqında Əsasnaməyə~~
~~1 saylı ƏLAVƏ~~

-

**~~Azərbaycan Respublikasının 16 yaşına çatmamış vətəndaşının yaşayış yeri üzrə qeydiyyata alınması və ona şəxsiyyət vəsiqəsinin verilməsi haqqında~~**[44]

-

**~~ƏRİZƏ-ANKET~~**

-

| | | | | |
|---|---|---|---|---|
| ~~I. Vətəndaşın valideyni və ya onun qanuni nümayəndəsi tərəfindən doldurulan hissə:~~ | | | | |
| ~~Aşağıdakı məlumatları nəzərə alaraq yaşayış yeri üzrə qeydiyyata alınmağımı və Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin verilməsini xahiş edirəm:~~ | | | | |
| ~~1. Şəxsiyyət vəsiqəsi sahibinin:~~ | | | | |
| ~~1.1. Soyadı~~ | ~~1.2. Adı~~ | | ~~1.3. Atasının soyadı və adı~~ | |
| ~~1.4. Anasının soyadı və adı~~ | ~~1.5. Doğulduğu yer~~ | | ~~1.6. Doğulduğu tarix~~ | |
| ~~1.7. Cinsi~~ | ~~1.8. Qan qrupu~~ | - | - | |
| ~~1.11. Yaşayış yeri~~ | | | | |
| ~~2. Ərizəçinin:~~ | | | | |
| ~~2.1. Soyadı~~ | ~~2.2. Adı~~ | ~~2.3. Atasının adı~~ | ~~2.4. 16 yaşa çatmamış vətəndaşa aidiyyəti~~ | ~~2.5. Yaşadığı yer~~ |
| ~~3. Ərizəçinin xüsusi qeydi~~ | ~~4. Ərizəçinin imzası~~ | | ~~5. Tarix~~ | |

<table>
<tr><td colspan="6">II. Yaşayış yeri üzrə qeydiyyata alan və şəxsiyyət vəsiqəsini verən müvafiq icra hakimiyyəti orqanı tərəfindən doldurulan hissə:</td></tr>
<tr><td colspan="6">a) Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı tərəfindən vətəndaşın valideyninin və ya onun qanuni nümayəndəsinin ərizəsinin yoxlanılması ilə bağlı qeydlər:</td></tr>
<tr><td colspan="2">6. Müvafiq icra hakimiyyəti orqanının adı</td><td colspan="4">7. Ərizənin qəbul edildiyi tarix və qeydiyyat nömrəsi</td></tr>
<tr><td colspan="6">8. Yoxlama zamanı aşağıdakı sənədlər nəzərdən keçirilmişdir:</td></tr>
<tr><td>Sənədlərin adı</td><td>Nömrəsi</td><td colspan="2">Verilmə tarixi</td><td colspan="2">Kim tərəfindən verilmişdir</td></tr>
<tr><td>8.1. Doğum haqqında şəhadətnamə</td><td>-</td><td colspan="2">-</td><td colspan="2">-</td></tr>
<tr><td>8.2. Tibbi arayış</td><td>-</td><td colspan="2">-</td><td colspan="2">-</td></tr>
<tr><td>8.3. Lazım olarsa, qanuni nümayəndənin hüquqlarını təsdiq edən sənəd</td><td>-</td><td colspan="2">-</td><td colspan="2">-</td></tr>
<tr><td>8.4. Yaşayış sahəsinə köçmək üçün əsas verən order (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, icarə və ya kirayə müqaviləsi, vətəndaşa yaşayış sahəsi verən şəxsin ərizəsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd) [45]</td><td>-</td><td colspan="2">-</td><td colspan="2">-</td></tr>
<tr><td colspan="6">9. Məlumatları yoxlamış məsul işçinin:</td></tr>
<tr><td>9.1. Soyadı, adı, atasının adı</td><td>9.2. Vəzifəsi</td><td colspan="3">9.3. Şəxsi imzası</td><td>9.4. Möhür</td></tr>
<tr><td colspan="6">10. Vətəndaş haqqında göstərilən məlumatların təqdim olunmuş sənədlərə uyğunluğu haqqında qeyd:</td></tr>
<tr><td colspan="6">b) Şəxsiyyət vəsiqəsinin hazırlanması ilə əlaqədar qeydlər:</td></tr>
<tr><td>11. Şəxsiyyət vəsiqəsini hazırlayan regional mərkəzin adı</td><td colspan="2">12. Sənədlərin göndərildiyi tarix</td><td colspan="3">13. Hazırlanmış şəxsiyyət vəsiqəsinin daxil olduğu tarix</td></tr>
<tr><td colspan="6">v) Şəxsiyyət vəsiqəsinin ərizəçiyə verilməsi ilə əlaqədar qeydlər:</td></tr>
<tr><td colspan="2">14. Şəxsiyyət vəsiqəsinin verildiyi tarix</td><td colspan="4">15. Ərizəçinin şəxsi imzası</td></tr>
<tr><td colspan="6">16. Xüsusi qeydlər:</td></tr>
</table>

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında"
Azərbaycan Respublikası Qanununun
tətbiqi haqqında Əsasnaməyə
2 saylı ƏLAVƏ

**Azərbaycan Respublikası vətəndaşının yaşayış yeri üzrə qeydiyyata alınması və ona şəxsiyyət vəsiqəsinin verilməsi haqqında**

**ƏRİZƏ-ANKET**

<table>
<tr><td colspan="4">I. Vətəndaş və ya onun qanuni nümayəndəsi tərəfindən doldurulan hissə:</td></tr>
<tr><td colspan="4">Aşağıdakı məlumatları nəzərə alaraq yaşayış yeri üzrə qeydiyyata alınmağımı və Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin verilməsini xahiş edirəm:</td></tr>
<tr><td colspan="4">1. Şəxsiyyət vəsiqəsi sahibinin:</td></tr>
<tr><td>1.1. Soyadı</td><td colspan="2">1.2. Adı</td><td>1.3. Atasının adı</td></tr>
<tr><td>1.4. Doğulduğu yer</td><td colspan="2">1.5. Doğulduğu tarix</td><td>1.6. Cinsi</td></tr>
<tr><td>1.7. Qan qrupu</td><td colspan="2">1.8. Boyu</td><td>1.9. Gözlərinin rəngi</td></tr>
<tr><td>1.10. Hərbi vəzifəsi</td><td colspan="2">1.11. Yaşayış yeri</td><td>1.12. Şəxsi imzası</td></tr>
<tr><td colspan="4">2. Şəxsiyyət vəsiqəsi sahibinin ailə vəziyyəti — subay: hə—yox; uşağı varsa, onun</td></tr>
<tr><td colspan="2">Soyadı və adı</td><td>Doğulduğu tarix</td><td>Cinsi</td></tr>
<tr><td colspan="2">-</td><td>-</td><td>-</td></tr>
</table>

| | | |
|---|---|---|
| - | - | - |
| - | - | - |

| | | | |
|---|---|---|---|
| 3. Ərizə vətəndaşın qanuni nümayəndəsi tərəfindən verilirsə onun: | | | |
| 3.1. Soyadı | 3.2. Adı | 3.3. Atasının adı | 3.4. Yaşadığı yer |

| | | |
|---|---|---|
| 4. Ərizəçinin xüsusi qeydi | 5. Ərizəçinin imzası | 6. Tarix |

| | |
|---|---|
| II. Yaşayış yeri üzrə qeydiyyata alan və şəxsiyyət vəsiqəsini verən müvafiq icra hakimiyyəti orqanı tərəfindən doldurulan hissə: | |
| a) Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı tərəfindən vətəndaşın valideynin və ya onun qanuni nümayəndəsinin ərizəsinin yoxlanılması ilə bağlı qeydlər: | |
| 7. Müvafiq icra hakimiyyəti orqanının adı | 8. Ərizənin qəbul edildiyi tarix və qeydiyyat nömrəsi |

| | | | |
|---|---|---|---|
| 9. Yoxlama zamanı aşağıdakı sənədlər nəzərdən keçirilmişdir: | | | |
| Sənədlərin adı | Nömrəsi | Verilmə tarixi | Kim tərəfindən verilmişdir |
| 9.1. Şəxsiyyət vəsiqəsi və ya doğum haqqında şəhadətnamə | - | - | - |
| 9.2. Nikah haqqında şəhadətnamə | - | - | - |
| 9.3. Tibbi arayış | - | - | - |
| 9.4. Hərbi bilet və ya təhkim şəhadətnaməsi | - | - | - |
| 9.5. Lazım olarsa, qanuni nümayəndənin hüquqlarını təsdiq edən sənəd | - | - | - |
| 9.6. Lazım olarsa, Azərbaycan Respublikası vətəndaşlığına qəbul olunmuş şəxsin sənədləri | - | - | - |
| 9.7. Yaşayış sahəsinə köçmək üçün əsas verən order (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, icarə və ya kirayə müqaviləsi, vətəndaşa yaşayış sahəsi verən şəxsin ərizəsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd) [46] | - | - | - |

| | | | |
|---|---|---|---|
| 10. Məlumatları yoxlamış məsul işçinin: | | | |
| 10.1. Soyadı, adı, atasının adı | 10.2. Vəzifəsi | 10.3. Şəxsi imzası | 10.4. Möhür |

| | |
|---|---|
| 11. Vətəndaş haqqında göstərilən məlumatların təqdim olunmuş sənədlərə uyğunluğu haqqında qeyd: | 12. Vətəndaşın zahiri görkəminin təqdim olunmuş fotoşəkilə uyğunluğu haqqında qeyd: |

| | | |
|---|---|---|
| b) Şəxsiyyət vəsiqəsinin hazırlanması ilə əlaqədar qeydlər: | | |
| 13. Şəxsiyyət vəsiqəsini hazırlayan regional mərkəzin adı | 14. Sənədlərin göndərildiyi tarix | 15. Hazırlanmış şəxsiyyət vəsiqəsinin daxil olduğu tarix |

| | |
|---|---|
| v) Şəxsiyyət vəsiqəsinin ərizəçiyə verilməsi ilə əlaqədar qeydlər: | |
| 16. Şəxsiyyət vəsiqəsinin verildiyi tarix | 17. Ərizəçinin şəxsi imzası |
| 18. Xüsusi qeydlər: | |

-

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında"
Azərbaycan Respublikası Qanununun
tətbiqi haqqında Əsasnaməyə
3 saylı ƏLAVƏ

**16 yaşına çatanadək vətəndaşlığı olmayan şəxsin yaşayış yeri üzrə qeydiyyata alınması və ona Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün şəxsiyyət vəsiqəsinin verilməsi haqqında**

**ƏRİZƏ-ANKET**

| | | |
|---|---|---|
| I. Vətəndaşlığı olmayan şəxsin valideyni və ya onun qanuni nümayəndəsi tərəfindən doldurulan hissə: | | |
| Aşağıdakı məlumatları nəzərə alaraq yaşayış yeri üzrə qeydiyyata alınmağımı və vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin verilməsini xahiş edirəm: | | |
| 1. Şəxsiyyət vəsiqəsi sahibinin: | | |
| 1.1. Soyadı | 1.2. Adı | 1.3. Atasının soyadı və adı |

| 1.4. Anasının soyadı və adı | 1.5. Doğulduğu yer | 1.6. Doğulduğu tarix |
|---|---|---|
| | | |

| 1.7. Cinsi | 1.8. Qan qrupu | 1.9. Boyu | 1.10. Gözlərinin rəngi |
|---|---|---|---|
| | | | |

| 1.11. Haradan gəlmişdir | 1.12. Yaşayış yeri |
|---|---|
| 2. Ərizəçinin: | |

| 2.1. Soyadı | 2.2. Adı | 2.3. Atasının adı | 2.4. 16 yaşa çatmamış vətəndaşlığı olmayan şəxsə aidiyyəti | 2.5. Yaşadığı yer |
|---|---|---|---|---|
| | | | | |

| 3. Ərizəçinin xüsusi qeydi | 4. Ərizəçinin imzası | 5. Tarix |
|---|---|---|
| | | |

| |
|---|
| II. Yaşayış yeri üzrə qeydiyyata alan və vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsini verən müvafiq icra hakimiyyəti orqanı tərəfindən doldurulan hissə: |
| a) Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı tərəfindən vətəndaşlığı olmayan şəxsin valideyninin və ya onun qanuni nümayəndəsinin ərizəsinin yoxlanılması ilə bağlı qeydlər: |

| 6. Müvafiq icra hakimiyyəti orqanının adı | 7. Ərizənin qəbul edildiyi tarix və qeydiyyat nömrəsi |
|---|---|
| 8. Yoxlama zamanı aşağıdakı sənədlər nəzərdən keçirilmişdir: | |

| Sənədlərin adı | Nömrəsi | Verilmə tarixi | Kim tərəfindən verilmişdir |
|---|---|---|---|
| 8.1. Doğum haqqında şəhadətnamə | | | |
| 8.2. Tibbi arayış | | | |
| 8.3. Lazım olarsa, qanuni nümayəndənin hüquqlarını təsdiq edən sənəd | | | |
| 8.4. Yaşayış sahəsinə köçmək üçün əsas verən order (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, icarə və ya kirayə müqaviləsi, vətəndaşa yaşayış sahəsi verən şəxsin ərizəsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd) [47] | | | |
| 9. Məlumatları yoxlamış məsul işçinin: | | | |

| 9.1. Soyadı, adı, atasının adı | 9.2. Vəzifəsi | 9.3. Şəxsi imzası | 9.4. Möhür |
|---|---|---|---|
| | | | |

| |
|---|
| 10. Vətəndaşlığı olmayan şəxs haqqında göstərilən məlumatların təqdim olunmuş sənədlərə uyğunluğu haqqında qeyd: |
| b) Vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin hazırlanması ilə əlaqədar qeydlər: |

| 11. Vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsini hazırlayan regional mərkəzin adı | 12. Sənədlərin göndərildiyi tarix | 13. Vətəndaşlığı olmayan şəxsin hazırlanmış şəxsiyyət vəsiqəsinin daxil olduğu tarix |
|---|---|---|
| v) Vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin ərizəçiyə verilməsi ilə əlaqədar qeydlər: | | |

| 14. Vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin verildiyi tarix | 15. Ərizəçinin şəxsi imzası |
|---|---|
| 16. Xüsusi qeydlər: | |

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında"
Azərbaycan Respublikası Qanununun
tətbiqi haqqında Əsasnaməyə
4 saylı ƏLAVƏ

**16 yaşına çatdıqdan sonra vətəndaşlığı olmayan şəxsin yaşayış yeri üzrə qeydiyyata alınması və ona Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün şəxsiyyət vəsiqəsinin verilməsi haqqında**

**ƏRİZƏ-ANKET**

| |
|---|
| I. Vətəndaşlığı olmayan şəxs və ya onun qanuni nümayəndəsi tərəfindən doldurulan hissə: |
| Aşağıdakı məlumatları nəzərə alaraq yaşayış yeri üzrə qeydiyyata alınmağımı və vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin verilməsini xahiş edirəm: |
| 1. Şəxsiyyət vəsiqəsi sahibinin: |

| | | |
|---|---|---|
| 1.1. Soyadı | 1.2. Adı | 1.3. Atasının adı |
| 1.4. Doğulduğu yer | 1.5. Doğulduğu tarix | 1.6. Cinsi |
| 1.7. Qan qrupu | 1.8. Boyu | 1.9. Gözlərinin rəngi |
| 1.10. Haradan gəlmişdir | 1.11. Yaşayış yeri | 1.12. Şəxsi imzası |

| 2. Şəxsiyyət vəsiqəsi sahibinin ailə vəziyyəti — subay: hə—yox; uşağı varsa, onun: | | |
|---|---|---|
| Soyadı və adı | Doğulduğu tarix | Cinsi |
| | | |
| | | |
| | | |

| 3. Ərizə vətəndaşlığı olmayan şəxsin qanuni nümayəndəsi tərəfindən verilirsə onun: | | | |
|---|---|---|---|
| 3.1. Soyadı | 3.2. Adı | 3.3. Atasının adı | 3.4. Yaşadığı yer |

| | | |
|---|---|---|
| 4. Ərizəçinin xüsusi qeydi | 5. Ərizəçinin imzası | 6. Tarix |

| II. Yaşayış yeri üzrə qeydiyyata alan və vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsini verən müvafiq icra hakimiyyəti orqanı tərəfindən doldurulan hissə: | |
|---|---|
| a) Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı tərəfindən vətəndaşlığı olmayan şəxsin və ya onun qanuni nümayəndəsinin ərizəsinin yoxlanılması ilə bağlı qeydlər: | |
| 7. Müvafiq icra hakimiyyəti orqanının adı | 8. Ərizənin qəbul edildiyi tarix və qeydiyyat nömrəsi |

| 9. Yoxlama zamanı aşağıdakı sənədlər nəzərdən keçirilmişdir: | | | |
|---|---|---|---|
| Sənədlərin adı | Nömrəsi | Verilmə tarixi | Kim tərəfindən verilmişdir |
| 9.1. Doğum haqqında şəhadətnamə (16 yaşına çatmamış şəxsin şəxsiyyət vəsiqəsi) | | | |
| 9.2. Nikah haqqında şəhadətnamə | | | |
| 9.3. Tibbi arayış | | | |
| 9.4. Lazım olarsa, qanuni nümayəndənin hüquqlarını təsdiq edən sənəd | | | |
| 9.5. Yaşayış sahəsinə köçmək üçün əsas verən order (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, icarə və ya kirayə müqaviləsi, vətəndaşa yaşayış sahəsi verən şəxsin ərizəsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd) [48] | | | |

| 10. Məlumatları yoxlamış məsul işçinin: | | | |
|---|---|---|---|
| 10.1. Soyadı, adı, atasının adı | 10.2. Vəzifəsi | 10.3. Şəxsi imzası | 10.4. Möhür |

| | |
|---|---|
| 11. Vətəndaşlığı olmayan şəxs haqqında göstərilən məlumatların təqdim olunmuş sənədlərə uyğunluğu haqqında qeyd: | 12. Vətəndaşlığı olmayan şəxsin zahiri görkəminin təqdim olunmuş fotoşəkilə uyğunluğu haqqında qeyd: |

| b) Vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin hazırlanması ilə əlaqədar qeydlər: | | |
|---|---|---|
| 13. Vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsini hazırlayan regional mərkəzin adı | 14. Sənədlərin göndərildiyi tarix | 15. Vətəndaşlığı olmayan şəxsin hazırlanmış şəxsiyyət vəsiqəsinin daxil olduğu tarix |

| v) Vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin ərizəçiyə verilməsi ilə əlaqədar qeydlər: | |
|---|---|
| 16. Vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin verildiyi tarix | 17. Ərizəçinin şəxsi imzası |
| 18. Xüsusi qeydlər: | |

“~~Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında~~”
~~Azərbaycan Respublikası Qanununun~~
~~tətbiqi haqqında Əsasnaməyə~~
~~5 saylı ƏLAVƏ~~ [49]

-
-

**~~ƏCNƏBİNİN QEYD VƏRƏQƏSİ _______ I hissə~~**
**~~Azərbaycan Respublikasına xoş gəlmişsiniz!~~**

Azərbaycan Respublikasına gələn əcnəbi bu formanın hər üç hissəsində 1—14-cü bəndlərini böyük çap hərflərlə Azərbaycan, rus və ya ingilis dilində dəqiq doldurmalı və bundan sonra sənədi müvafiq icra hakimiyyəti orqanının əməkdaşına verməlidir. Əcnəbi Azərbaycan Respublikasında olduğu müddətdə bu sənədi möhkəm saxlamağa, onun arxa tərəfində olan məlumatla tanış olmağa və Azərbaycan Respublikasından gedəndə həmin sənədi müvafiq icra hakimiyyəti orqanının əməkdaşına təhvil verməyə borcludur. Bu məsələni anlayacağınıza ümid edilir.

| | | |
|---|---|---|
| 1. ____ (Soyadı və adı) | 2. ____ (Doğulduğu tarix (gün, ay, il)) | |
| 3. ____ (Vətəndaşlığı) | 4. ____ (Cinsi) | 5. ____ (Pasportun nömrəsi və verilmə tarixi) |
| 6. ____ (Hansı ölkədən gəlmişsiniz) | 7. ____ (Hansı yolla gəlmişsiniz (quru, hava və ya dəniz) | |
| 8. ____ (Gəldiyiniz nəqliyyat vasitəsi (növü və qeydiyyat nömrəsi) | 9. ____ (Yaşadığınız ölkə) | |
| 10. ____ (Vizanın verildiyi ölkə) | 11. ____ (Vizanın verilmə tarixi) | 12. ____ (Vizanın müddəti) |
| 13. ____ (Azərbaycanda qalacağınız yer (şəhər (rayon) və ünvan) | 14. ____ (Şəxsi imza) | |
| 15. ____ Əcnəbinin gəlməsini qeyd etmiş orqanın adı | | |
| 16. ____ (Qeydləri aparmış əməkdaşın soyadı, adı və vəzifəsi) | | Möhür |
| 17. ____ (Vaxt və tarix) | 18. ____ (Əməkdaşın şəxsi imzası) | |

------------------------------------------------------------ Kəsmə xətti ------------------------------------------------------------

**ƏCNƏBİNİN QEYD VƏRƏQƏSİ ____ II hissə**

| | | |
|---|---|---|
| 1. ____ (Soyadı və adı) | 2. ____ (Doğulduğu tarix (gün, ay, il)) | |
| 3. ____ (Vətəndaşlığı) | 4. ____ (Cinsi) | 5. ____ (Pasportun nömrəsi və verilmə tarixi) |
| 6. ____ (Hansı ölkədən gəlmişsiniz) | 7. ____ (Hansı yolla gəlmişsiniz (quru, hava və ya dəniz) | |
| 8. ____ (Gəldiyiniz nəqliyyat vasitəsi (növü və qeydiyyat nömrəsi) | 9. ____ (Yaşadığınız ölkə) | |
| 10. ____ (Vizanın verildiyi ölkə) | 11. ____ (Vizanın verilmə tarixi) | 12. ____ (Vizanın müddəti) |
| 13. ____ (Azərbaycanda qalacağınız yer (şəhər (rayon) və ünvan) | 14. ____ (Şəxsi imza) | |
| 15. ____ Əcnəbinin gəlməsini qeyd etmiş orqanın adı | | |
| 16. ____ (Qeydləri aparmış əməkdaşın soyadı, adı və vəzifəsi) | | Möhür |
| 17. ____ (Vaxt və tarix) | 18. ____ (Əməkdaşın şəxsi imzası) | |

------------------------------------------------------------ Kəsmə xətti ------------------------------------------------------------

**ƏCNƏBİNİN QEYD VƏRƏQƏSİ ____ III HİSSƏ**

| | | |
|---|---|---|
| 1. ____ (Soyadı və adı) | 2. ____ (Doğulduğu tarix (gün, ay, il)) | |
| 3. ____ (Vətəndaşlığı) | 4. ____ (Cinsi) | 5. ____ (Pasportun nömrəsi və verilmə tarixi) |
| 6. ____ (Hansı ölkədən gəlmişsiniz) | 7. ____ (Hansı yolla gəlmişsiniz (quru, hava və ya dəniz) | |
| 8. ____ (Gəldiyiniz nəqliyyat vasitəsi (növü və qeydiyyat nömrəsi) | 9. ____ (Yaşadığınız ölkə) | |
| 10. ____ (Vizanın verildiyi ölkə) | 11. ____ (Vizanın verilmə tarixi) | 12. ____ (Vizanın müddəti) |

| | | |
|---|---|---|
| ~~13. __________________________~~<br>~~(Azərbaycanda qalacağınız yer (şəhər (rayon) və ünvan)~~ | | ~~14.~~<br>________________<br>~~(Şəxsi imza)~~ |
| ~~15. ________________________________________~~<br>~~Əcnəbinin gəlməsini qeyd etmiş orqanın adı~~ | | |
| ~~16. ________________________________~~<br>~~(Qeydləri aparmış əməkdaşın soyadı, adı və vəzifəsi)~~ | | ~~Möhür~~ |
| ~~17. ________________~~<br>~~(Vaxt və tarix)~~ | ~~18. ________________~~<br>~~(Əməkdaşın şəxsi imzası)~~ | |

-

~~Diqqət - Azərbaycan Respublikasının qanunvericiliyinə görə:~~

~~1) əcnəbinin Azərbaycan Respublikasında vizada göstərilən müddətdən artıq qalması qeyri-qanunidir~~;

~~2) Azərbaycan Respublikasına 30 günədək yaşamağa gələn hər bir əcnəbi olduğu mehmanxananın, sanatoriyanın, istirahət evinin, pansionatın, kempinqin, turist bazasının, xəstəxananın və ya digər belə ictimai yerlərin müdiriyyətinə və yaxud yaşayış sahəsinin sahibinə və ya istifadəçisinə dərhal müraciət edərək xüsusi ərizə-anket doldurmalı və qeyd vərəqəsinin ikinci hissəsi ilə birlikdə onu yuxarıda göstərilən şəxslərə sənədləri 24 saat ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi üçün verməlidir;~~

~~3) Azərbaycan Respublikasında 30 gündən artıq yaşamağa gələn hər bir əcnəbi yaşayış yeri üzrə qeydiyyatdan keçməlidir. Bunun üçün o, yaşayış yerinə gəldiyi vaxtdan 3 gün ərzində müvafiq icra hakimiyyəti orqanına müraciət edərək öz pasportunu, giriş icazəsini (vizasını), yaşayış sahəsinə köçmək üçün əsas verən orderi (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışını, icarə və ya kirayə müqaviləsini və ya Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş başqa sənədi) və ya əcnəbiyə yaşayış sahəsi verən şəxsin ərizəsini təqdim etməlidir;~~

~~4) müvafiq olaraq 1-ci və ya 2-ci bəndlərdə göstərilmiş tələblərə riayət etməyən şəxslər intizam və ya inzibati məsuliyyət daşıyırlar.~~

~~5) əgər əcnəbi Azərbaycan Respublikasına gəlişi zamanı Azərbaycan Respublikası qanunlarının tələblərini pozmuşsa, gələcəkdə onun Azərbaycan Respublikasına gəlişi qadağan edilə bilər.~~

Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 583-IVQD nömrəli Qanunu ilə təsdiq edilmişdir [50]

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"yə 6 saylı Əlavə

**Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında**

**ƏRİZƏ-ANKET**

| | | |
|---|---|---|
| Aşağıdakı məlumatları nəzərə alaraq, əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyata alınmasını xahiş edirəm: | | |
| 1. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs haqqında məlumatlar: | | |
| 1.1. soyadı | 1.2. adı | 1.3. atasının adı |
| 1.4. doğulduğu tarix (gün, ay, il) | 1.5. cinsi | 1.6. hansı ölkədən gəlmişdir |
| 1.7. vətəndaşlıq mənsubiyyəti | | 1.8. pasportun nömrəsi və etibarlılıq müddəti |
| 1.9. daimi yaşadığı ölkə | | 1.10. əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə daxil olduğu tarix (gün, ay, il) |
| 1.11. əcnəbinin və vətəndaşlığı olmayan şəxsin ölkədə müvəqqəti olma müddəti | | |
| 1.11.1. Viza əsasında:<br>vizanın etibarlılıq müddəti –<br>vizadakı qalma müddəti – | 1.11.2. Viza tələb olunmayan qaydada:<br>ölkədə qalacağı müddət – | |
| 2. Qəbul edən hüquqi və ya fiziki şəxs haqqında məlumatlar: | | |
| 2.1. hüquqi şəxs olduqda – hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı: | | |
| 2.2. fiziki şəxs olduqda – soyadı, adı və atasının adı, ünvanı, şəxsiyyətini təsdiq<br>edən sənəd haqqında məlumatlar (seriya, nömrə) | | |
| 3. Qəbul edən tərəfin imzası | 4. Qəbul edən tərəfin telefon nömrəsi | |
| 5. Ərizənin verildiyi tarix | | |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 5 oktyabr 2001-ci il tarixli 175-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 11, maddə 669**)
2. 19 aprel 2002-ci il tarixli 306-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 5, maddə 237**)
3. 21 aprel 2006-cı il tarixli 100-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 6, maddə 478**)
4. 16 iyun 2007-ci il tarixli 389-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 756**)
5. 19 oktyabr 2007-ci il tarixli 459-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1075**)
6. 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**)
7. 2 oktyabr 2008-ci il tarixli 694-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 oktyabr 2008-ci il, 243, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, 10, maddə 886)**
8. 24 fevral 2009-cu il tarixli 770-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 19 aprel 2008-ci il, 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 04, maddə 211)**
9. 30 iyun 2009-cu il tarixli **858-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 28 iyul 2009-cu il, 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 519)**
10. 1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 mart 2010-cu il, 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 03, maddə 171)**
11. 5 mart 2013-cü il tarixli **583-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 mart 2013-cü il, 61; "Azərbaycan" qəzeti, 28 mart 2013-cü il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 230 )**
12. 22 oktyabr 2013-cü il tarixli **782-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 5 noyabr 2013-cü il, 243; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1297 )**
13. 29 oktyabr 2013-cü il tarixli **796-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 17 noyabr 2013-cü il, 252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1310 )**
14. 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 may 2013-cü il, 106 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471)**
15. 17 oktyabr 2014-cü il tarixli **1062-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1342)**
16. 03 aprel 2015-ci il tarixli **1254-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 07 may 2015-ci il, 097 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 498)**
17. 30 dekabr 2016-cı il tarixli **485-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 22 yanvar 2017-ci il, 14 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1, maddə 31)**
18. 30 noyabr 2018-ci il tarixli **1370-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2018-ci il, 294 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2506)**
19. 24 aprel 2020-ci il tarixli **54-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 may 2020-ci il, 99 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 510)**
20. 20 dekabr 2022-ci il tarixli **724-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 9 fevral 2023-cü il, 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 2, maddə 177)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 2 oktyabr 2008-ci il tarixli 694-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 oktyabr 2008-ci il, 243, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, 10, maddə 886)** ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 1-ci bəndinə yeni məzmunda ikinci abzas əlavə edilmişdir.

[2] 30 iyun 2009-cu il tarixli **858-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 28 iyul 2009-cu il, 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 519)** ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 1-ci bəndə üçüncü abzas əlavə edilmişdir.

22 oktyabr 2013-cü il tarixli **782-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 5 noyabr 2013-cü il, 243; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1297 )** ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 1-ci maddəsinin üçüncü hissəsinə "**yaşayış yeri**" sözlərindən sonra "**və olduğu yer**" sözləri əlavə edilmişdir.

[3] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında " Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 2-ci bəndin birinci cümləsində "**Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı**

**olmayan şəxslərə**" sözləri "**1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış vətəndaşlığı olmayan şəxslərə və onların "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək doğulmuş uşaqlarına (bundan sonra - "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs")**" sözləri ilə əvəz edilmişdir.

5 mart 2013-cü il tarixli **583-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 20 mart 2013-cü il, 61; "Azərbaycan" qəzeti, 28 mart 2013-cü il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 230**) ilə 2-ci və 5-ci maddələrdən "**və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin**" sözləri çıxarılmışdır.

19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 2-ci maddədə "**Vətəndaşlara**" sözü "**Yaşayış yeri üzrə qeydiyyatda olmayan vətəndaşlara**" sözləri ilə, "**Əsasnamənin 5-ci bəndində**" sözləri "**Əsasnamədə**" sözü ilə əvəz edilmişdir.

[4] 21 aprel 2006-cı il tarixli **100-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 6, maddə 478**) ilə 2-ci bəndinin "a" yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~dövlət texniki inventarlaşdırma və mülkiyyət hüquqlarının qeydiyyatı orqanları tərəfindən verilmiş mülkiyyət hüququnun qeydiyyat vəsiqəsi;~~

[5] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə yeni məzmunda 2-1-ci maddə əlavə edilmişdir.

[6] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 3-cü maddənin birinci abzasında "**2-ci bəndinin "a" - "q" yarımbəndlərində**" sözləri "**2-ci maddəsinin "a" - "q" bəndlərində**" sözləri ilə əvəz edilmişdir.

[7] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 3-cü maddənin ikinci abzas yeni redaksiyada verilmişdir.

-

əvvəlki redaksiyada deyilirdi:

~~ərizə-anket (vətəndaşlar üçün 1 və 2 saylı Əlavə, vətəndaşlığı olmayan şəxslər üçün isə 3 və 4 saylı Əlavə);~~

-

[8] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 3-cü maddənin üçüncü abzası dördüncü abzas hesab edilmişdir və yeni məzmunda üçüncü abzas əlavə edilmişdir.

-

[9] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 3-cü maddənin üçüncü abzasından "**və ya doğum haqqında şəhadətnamə**" sözləri çıxarılmışdır.

-

[10] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə yeni məzmunda 4-1-ci maddə əlavə edilmişdir.

-

[11] 24 fevral 2009-cu il tarixli 770-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 19 aprel 2008-ci il, 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 04, maddə 211**) ilə 2-ci və 5-ci bəndlərində **"və əcnəbilərin"** sözləri **"və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin"** sözləri ilə əvəz edilmişdir.

19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 5-ci maddədə **"2-ci və 4-cü bəndində**" sözləri "**2-ci – 4-1-ci maddələrində**" sözləri ilə əvəz edilmişdir və **"Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin və "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında" Əsasnamənin tələblərinə müvafiq surətdə**" sözləri çıxarılmışdır.

[12] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 6-cı maddənin ikinci cümlədə "**müvafiq şəxsiyyət vəsiqəsi verilənə qədər vətəndaşa — Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən müvəqqəti sənəd və vətəndaşlığı olmayan şəxsə -**" sözləri "**vətəndaşın şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısında yaşayış yeri üzrə məlumatı dəyişdirir, vətəndaşlığı olmayan şəxsə isə şəxsiyyət vəsiqəsi verilənə qədər ona"** sözləri ilə əvəz edilmişdir üçüncü cümlədə "**Vətəndaşa şəxsiyyət vəsiqəsi və vətəndaşlığı**" sözləri "**Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı**" sözləri ilə əvəz edilmişdir.

-

[13] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 7-ci maddə ləğv edilmişdir.

-

[14] 20 dekabr 2022-ci il tarixli **724-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 9 fevral 2023-cü il, 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 2, maddə 177**) ilə 9-cu maddənin "a)" bəndində "**təqdim edilmədikdə**" sözlərindən sonra "**(bu Əsasnamənin 23-3-cü maddəsinin tələbləri nəzərə alınmaqla)"** sözləri əlavə edilmişdir.

[15] 19 aprel 2002-ci il tarixli 306-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 5, maddə 237**) ilə 9-cu bəndin "b" yarımbəndində "**qapalı inzibati ərazi bölgələrində**" sözləri "**qapalı ərazilərdə (qanunvericiliklə müəyyən edilmiş şəxslər istisna olmaqla)**" sözləri ilə əvəz edilmişdir.

[16] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 10-cu maddənin "v" bəndində "**azadlıqdan**" sözündən əvvəl "**ömürlük**" sözü əlavə edilmişdir.

[17] 5 mart 2013-cü il tarixli **583-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 20 mart 2013-cü il, 61; "Azərbaycan" qəzeti, 28 mart 2013-cü il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 230** ) ilə 10-cu maddənin "**e**" bəndi və **20-23-cü maddələr** ləğv edilmişdir.

[18] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 11-ci maddədə "**özü üçün ərizə-anket (2 saylı Əlavə**)" sözləri **"olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anket (forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir)** " sözləri ilə əvəz edilmişdir.

-

[19] 16 iyun 2007-ci il tarixli 389-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 756**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 12-ci və 20-ci bəndlərinin birinci abzaslarında "bayram" sözündən əvvəl "iş günü hesab edilməyən" sözləri əlavə edilmişdir.

[20] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 12-ci maddənin üçüncü abzası yeni redaksiyada verilmişdir.

-

əvvəlki redaksiyada deyilirdi:

~~ərizə-anket (2 saylı Əlavə).~~

-

[21] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 13-cü maddədə "**qeydiyyata almalı və bu barədə müvəqqəti qeyd aparmaqla həmin qeydi onun şəxsiyyət vəsiqəsinin arxasına yapışdırmalıdır**" sözləri "**olduğu yer üzrə qeydiyyata almalıdır"** sözləri ilə əvəzedilmişdir.

[22] 29 oktyabr 2013-cü il tarixli **796-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 17 noyabr 2013-cü il, 252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1310** ) ilə 16-cı maddəsinin ikinci hissəsinin birinci cümlədə "**hərbi tədris**" sözlər "**hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil** " sözləri ilə əvəz edilmişdir və ikinci cümlə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Hərbi komissarlıq və ya hərbi tədris müəssisəsinin müdiriyyəti çağırışçının (kursantın) şəxsiyyət vəsiqəsini hərbi xidmət başa çatanadək müvəqqəti olaraq saxlamaq və sonra sahibinə qaytarmaq üçün yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanına göndərir.~~

-

[23] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında " Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 17-ci bənd çıxarılmışdır.

[24] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında " Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 18-ci bəndin birinci cümləsindən "**qeyd vərəqəsinin ikinci hissəsi ilə birlikdə** " sözləri çıxarılmışdır.

5 mart 2013-cü il tarixli **583-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 20 mart 2013-cü il, 61; "Azərbaycan" qəzeti, 28 mart 2013-cü il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 230** ) ilə 18-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~18. Azərbaycan Respublikası ərazisində 30 günədək yaşamaq istəyən əcnəbi yataqxanaya, mehmanxanaya, sanatoriyaya, istirahət evinə, pansionata, kempinqə, turist bazasına, xəstəxanaya və ya digər belə ictimai yerlərə, başqa yaşayış sahəsinə gəldikdə əcnəbi dərhal xüsusi ərizə-anket (6 saylı Əlavə) dolduraraq qeyd vərəqəsinin ikinci hissəsi ilə birlikdə həmin yerin müdiriyyətinə və yaxud yaşayış sahəsinin sahibinə və ya istifadəçisinə verir. Müdiriyyət və ya başqa yaşayış sahəsinin sahibi, yaxud istifadəçisi isə öz növbəsində həmin sənədləri 24 saat ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edir.~~

17 oktyabr 2014-cü il tarixli **1062-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1342**) ilə 18-ci maddənin birinci hissəsində "**pasportunun surətini**" sözləri "**pasportunun (digər sərhədkeçmə sənədinin) surətini müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatı,** " sözləri ilə əvəz edilmişdir və həmin hissəyə ikinci cümlə əlavə edilmişdir.

03 aprel 2015-ci il tarixli **1254-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 07 may 2015-ci il, 097 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 498**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 18-ci maddəsinin birinci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikasında 3 gündən artıq müvəqqəti olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs (bundan sonra – "əcnəbi") mehmanxanaya, sanatoriyaya, istirahət evinə, pansionata, kempinqə, turist bazasına, xəstəxanaya, digər belə ictimai yerə, mənzilə, başqa yaşayış sahəsinə gəldikdə həmin yerin müdiriyyəti və ya yaşayış sahəsinin sahibi (bundan sonra - "qəbul edən tərəf") 3 gün ərzində əcnəbinin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi (6 saylı Əlavə) və həmin şəxsin *pasportunun (digər sərhədkeçmə sənədinin) surətini müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatı,* poçt, elektron poçt vasitəsi ilə və ya şəxsən müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidir. *Əcnəbilər də olduğu yer üzrə qeydiyyata alınmaları üçün bu qaydada müraciət edə bilərlər.*~~

-

30 noyabr 2018-ci il tarixli **1370-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 28 dekabr 2018-ci il, 294 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2506**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 18-ci maddəsinin birinci hissəsində "**10**" rəqəmləri "**15**" rəqəmləri ilə əvəz edilmişdir.

[25] 03 aprel 2015-ci il tarixli **1254-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 07 may 2015-ci il, 097 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 498**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 18-ci maddəsinin ikinci hissənin birinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Ərizə-anketin blankları müvafiq icra hakimiyyəti orqanından və ölkə üzrə bütün poçt şöbələrindən əldə edilir.~~

[26] 17 oktyabr 2014-cü il tarixli **1062-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1342**) ilə 18-ci maddənin üçüncü hissəsində "**əcnəbini**" sözü "**əcnəbi barədə məlumatları Vahid Miqrasiya Məlumat Sisteminə daxil etməklə, onu**" sözləri ilə, "**qəbul edən tərəfə**" sözləri "**müraciət edən şəxsə**" sözləri ilə əvəz edilmişdir.

03 aprel 2015-ci il tarixli **1254-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 07 may 2015-ci il, 097 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 498**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin üçüncü-səkkizinci hissələr ləğv edilmişdir.

[27] 17 oktyabr 2014-cü il tarixli **1062-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1342**) ilə 18-ci maddəyə səkkizinci hissə əlavə edilmişdir.

[28] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında " Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 19-cu bənd çıxarılmışdır.

[29] 5 oktyabr 2001-ci il tarixli 175-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 11, maddə 669**) ilə 20-ci bəndə **"3 gün ərzində"** sözlərindən sonra **"(bazar və bayram günləri istisna olmaqla)"** sözləri əlavə edilmişdir.

24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında " Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 20-ci bəndin ikinci cümləsindən "**qeyd vərəqəsinin ikinci hissəsi ilə birlikdə**" sözləri çıxarılmışdır.

1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 mart 2010-cu il, 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 03, maddə 171**) ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 12-ci və 20-ci bəndlərinin birinci abzaslarında "**bazar və iş günü hesab edilməyən bayram günləri**" sözləri "**istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü** " sözləri ilə əvəz edilmişdir.

[30] 19 oktyabr 2007-ci il tarixli 459-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1075**) ilə Əsasnamə"nin 20-ci bəndinin dördüncü abzasında **"mülkiyyət hüququnun qeydiyyat vəsiqəsi"** sözləri **"mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"** sözləri ilə əvəz edilmişdir.

24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında " Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 20-ci bəndinin dördüncü abzasda "**və ya əcnəbiyə**" sözləri "**və əcnəbiyə**" sözləri ilə əvəz edilmişdir.

[31] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında " Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 20-ci bəndinə beşinci abzas əlavə edilmişdir.

30 iyun 2009-cu il tarixli **858-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 28 iyul 2009-cu il, 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 519**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 20-ci bəndin beşinci abzası çıxarılmışdır.

[32] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında " Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 22-ci bənddən "**qeyd vərəqəsinin üçüncü hissəsi və** " sözləri çıxarılmışdır.

[33] 5 mart 2013-cü il tarixli **583-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 20 mart 2013-cü il, 61; "Azərbaycan" qəzeti, 28 mart 2013-cü il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 230** ) ilə 23-1-ci və 23-2-ci maddələrdən ismin müvafiq hallarında verilmiş "**və ya vətəndaşlığı olmayan şəxslər** " və "**və ya vətəndaşlığı olmayan şəxs** " sözləri çıxarılmışdır.

30 dekabr 2016-cı il tarixli **485-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 yanvar 2017-ci il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1, maddə 31**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 23-1-ci maddəsinin birinci hissəsinə "**icazə**" sözündən sonra "**və ya qaçqın statusu** " sözləri əlavə edilmişdir.

24 aprel 2020-ci il tarixli **54-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 may 2020-ci il, 99 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 510**) ilə 23-1-ci maddənin birinci hissəyə "**Əcnəbilərə**" sözündən sonra "**və ya vətəndaşlığı olmayan şəxslərə**" sözləri, "**əcnəbilərin**" sözündən sonra isə "**və ya vətəndaşlığı olmayan şəxslərin**" sözləri əlavə edilmişdir.

[34] 30 dekabr 2016-cı il tarixli **485-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 yanvar 2017-ci il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1, maddə 31**) ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 23-1-ci maddəsinin ikinci hissəsinə "**icazənin**" sözündən sonra "**və ya qaçqın statusu** " sözləri əlavə edilmişdir.

24 aprel 2020-ci il tarixli **54-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 may 2020-ci il, 99 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 510**) ilə 23-1-ci maddənin ikinci hissəyə, həmin hissənin "b" (hər iki halda) və "c" (hər iki halda) bəndlərinə ismin müvafiq hallarında "**əcnəbi**" sözündən sonra ismin müvafiq hallarında "**və ya vətəndaşlığı olmayan şəxs** " sözləri əlavə edilmişdir.

[35] 17 oktyabr 2014-cü il tarixli **1062-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1342**) ilə 23-1-ci maddənin ikinci hissəsinin "b" bəndinə "**ərizəsi**"

sözündən sonra “(**əcnəbinin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla**) ” sözləri əlavə edilmişdir.

[36] 17 oktyabr 2014-cü il tarixli **1062-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 23 noyabr 2014-cü il, 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1342**) ilə 23-1-ci maddənin ikinci hissəsində “b” bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və “c” bəndi əlavə edilmişdir.

[37] 30 dekabr 2016-cı il tarixli **485-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 22 yanvar 2017-ci il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1, maddə 31**) ilə “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”nin 23-1-ci maddəsinin üçüncü hissəsi dördüncü hissə hesab edilmişdir və yeni məzmunda üçüncü hissə əlavə edilmişdir.

[38] 24 aprel 2020-ci il tarixli **54-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 21 may 2020-ci il, 99 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 510**) ilə 23-1-ci maddənin dördüncü hissə beşinci hissə hesab edilmişdir və yeni məzmunda dördüncü hissə əlavə edilmişdir.

[39] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında ” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”yə 23-1-ci bənd əlavə edilmişdir.

30 iyun 2009-cu il tarixli **858-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti 28 iyul 2009-cu il, 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 519**) ilə “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”nin 23-1-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~23-1. Azərbaycan Respublikasında daimi yaşamaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən immiqrant statusu verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu Əsasnaməyə uyğun olaraq yaşayış yeri üzrə qeydiyyata alınırlar. Bu məqsədlə həmin şəxslər müvafiq icra hakimiyyəti orqanına bu Əsasnamənin 2-ci bəndində göstərilən sənədlərdən əlavə, onlara immiqrant statusu verilməsi barədə müvafiq icra hakimiyyəti orqanının qərarını təqdim etməlidirlər. Yaşayış yeri üzrə qeydiyyata alınan immiqranta Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsi verilir.~~

30 dekabr 2016-cı il tarixli **485-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 22 yanvar 2017-ci il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1, maddə 31**) ilə “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”nin 23-1-ci maddəsinin dördüncü hissəsinə “**vəsiqəsində**” sözündən sonra **“, qaçqın vəsiqəsində, habelə müvəqqəti olma müddətinin uzadılması haqqında qərarda**” sözləri əlavə edilmişdir.

24 aprel 2020-ci il tarixli **54-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 21 may 2020-ci il, 99 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 510**) ilə 23-2-ci maddənin birinci cümləyə “**əcnəbi**” sözündən sonra “**və ya vətəndaşlığı olmayan şəxs**” sözləri əlavə edilmişdir və ikinci cümləyə “**əcnəbini**” sözündən sonra **“və ya vətəndaşlığı olmayan şəxsi”** sözləri əlavə edilmişdir.

[40] 17 oktyabr 2014-cü il tarixli **1062-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 23 noyabr 2014-cü il, 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1342**) ilə 23-2-ci maddənin birinci abzasında “**və “b**” sözləri “**, “b” və “c**” sözləri ilə əvəz edilmişdir.

30 dekabr 2016-cı il tarixli **485-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 22 yanvar 2017-ci il, 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1, maddə 31**) ilə “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”nin 23-2-ci maddənin birinci cümləsində “**icazə**” sözündən sonra “**və ya qaçqın statusu** ” sözləri əlavə edilmişdir.

19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə 23-2-ci maddədə “**23-1-ci bəndinin “a” və “b” yarımbəndlərində** ” sözləri “**23-1-ci maddəsinin “a” və “b” bəndlərində** ” sözləri ilə əvəz edilmişdir.

-

[41] 30 iyun 2009-cu il tarixli **858-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti 28 iyul 2009-cu il, 163**) ilə “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”nin 23-2-ci bənd əlavə edilmişdir.

[42] 20 dekabr 2022-ci il tarixli **724-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 fevral 2023-cü il, “Azərbaycan” qəzeti, 9 fevral 2023-cü il, 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 2, maddə 177**) ilə yeni məzmunda 23-3-cü maddə əlavə edilmişdir.

[43] 30 iyun 2009-cu il tarixli **858-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti 28 iyul 2009-cu il, 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 519**) ilə “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”nin 26-cı bənddə “**səlahiyyətli dövlət orqanına və ya** ” sözləri “**inzibati qaydada və (və ya)** ” sözləri ilə əvəz edilmişdir.

[44] 19 aprel 2013-cü il tarixli **622-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 18 may 2013-cü il, 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 471**) ilə “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”yə 1 və 2 saylı Əlavələr 2018-ci il sentyabrın 1-dən ləğv edilmişdir.

-

[45] 19 oktyabr 2007-ci il tarixli 459-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1075**) ilə Əsasnaməyə 1 saylı Əlavənin — "Azərbaycan Respublikasının 16 yaşına çatmamış vətəndaşının yaşayış yeri üzrə qeydiyyata alınması və ona şəxsiyyət vəsiqəsinin verilməsi haqqında Ərizə-Anketin 8.4-cü bəndində **"mülkiyyət hüququnun qeydiyyat vəsiqəsi"** sözləri **"mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"** sözləri ilə əvəz edilmişdir.

[46] 19 oktyabr 2007-ci il tarixli 459-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1075**) ilə Əsasnaməyə 2 saylı Əlavənin — "Azərbaycan Respublikası vətəndaşının yaşayış yeri üzrə qeydiyyata alınması və ona şəxsiyyət vəsiqəsinin verilməsi haqqında Ərizə-Anketin 9.7-ci bəndində **"mülkiyyət hüququnun qeydiyyat vəsiqəsi"** sözləri **"mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"** sözləri ilə əvəz edilmişdir.

[47] 19 oktyabr 2007-ci il tarixli 459-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1075**) ilə Əsasnaməyə 3 saylı Əlavənin — "16 yaşına çatanadək vətəndaşlığı olmayan şəxsin yaşayış yeri üzrə qeydiyyata alınması və ona Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün şəxsiyyət vəsiqəsinin verilməsi haqqında Ərizə-Anketin 8.4-cü bəndində **"mülkiyyət hüququnun qeydiyyat vəsiqəsi"** sözləri **"mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"** sözləri ilə əvəz edilmişdir.

[48] 19 oktyabr 2007-ci il tarixli 459-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1075**) ilə Əsasnaməyə 5 saylı Əlavənin — "Əcnəbinin Qeyd Vərəqəsi"nin 3-cü bəndinin ikinci cümləsində **"mülkiyyət hüququnun qeydiyyat vəsiqəsini"** sözləri **"mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışmı"** sözləri ilə əvəz edilmişdir.

[49] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə Əsasnamənin 5 saylı Əlavəsi çıxarılmışdır.

[50] 5 mart 2013-cü il tarixli **583-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 20 mart 2013-cü il, 61; "Azərbaycan" qəzeti, 28 mart 2013-cü il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 230** ) ilə 6 saylı Əlavənin yeni redaksiyası təsdiq edilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~«Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında»~~
~~Azərbaycan Respublikası Qanununun~~
~~tətbiqi haqqında Əsasnaməyə~~
~~6 saylı ƏLAVƏ~~

**~~Əcnəbinin yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyata alınması haqqında~~**

**~~ƏRİZƏ-ANKET~~**

| | | | |
|---|---|---|---|
| ~~I. Əcnəbi tərəfindən doldurulan hissə:~~ | | | |
| ~~Aşağıdakı məlumatları nəzərə alaraq ________~~ ~~(müvafiq olaraq «yaşayış yeri» və ya «olduğu yer» sözləri yazılır)~~ ~~üzrə qeydiyyata alınmağımı xahiş edirəm:~~ | | | |
| ~~1. Əcnəbinin:~~ | | | |
| ~~1.1. Soyadı~~ | ~~1.2. Adı~~ | | ~~1.3. Atasının adı~~ |
| ~~1.4. Doğulduğu tarix (gün, ay, il)~~ | ~~1.5. Cinsi~~ | | ~~1.6. Hansı ölkədən gəlmişdir~~ |
| ~~1.7. Məşğuliyyət növü («dövlət qulluğu», «sahibkarlıq fəaliyyəti» və s.)~~ | | | ~~1.8. Viza müddəti~~ |
| ~~1.9. Yaşadığı ölkə~~ | | | ~~1.10. Şəxsi imzası~~ |
| ~~II. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən doldurulan hissə:~~ | | | |
| ~~a) Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı tərəfindən əcnəbinin ərizəsinin yoxlanılması ilə bağlı qeydlər:~~ | | | |
| ~~3. Müvafiq icra hakimiyyəti orqanının adı~~ | ~~4. Ərizənin qəbul edildiyi tarix və qeydiyyat nömrəsi~~ | | |
| ~~5. Yoxlama zamanı aşağıdakı sənədlər nəzərdən keçirilmişdir:~~ | | | |
| ~~Sənədlərin adı~~ | ~~Nömrəsi~~ | ~~Verilmə tarixi~~ | ~~Kim tərəfindən verilmişdir~~ |
| ~~5.1. Pasport~~ | - | - | - |
| ~~5.2. Giriş icazəsi (viza)~~ | - | - | - |
| ~~5.3. Əcnəbinin qeyd vərəqəsi~~ [50] | - | - | - |
| ~~6. Məlumatları yoxlamış məsul işçinin:~~ | | | |
| ~~6.1. Soyadı, adı, atasının adı~~ | ~~6.2. Vəzifəsi~~ | ~~6.3. Şəxsi imzası~~ | ~~6.4. Möhür~~ |
| ~~7. Xüsusi qeydlər:~~ | | | |